GÜNEY AZƏRBAYCAN QURTULUŞ PARTİYASI
SOUTH AZERBAIJAN FREEDOM PARTY
www.qurtulush.se
qurtulush@qurtulush.se

# Azərbaycan və Anadoluda Erməni cinayətləri.

**Güney Azərbaycan Qurtuluş Partiyasının (QURTULUŞ) Stratejik Araşdırmalar Bölümünün Akademik Çalışması.**

Rusiya XVIII-cü yüzillikdən bəri öz məqsədləri istiqamətində ermənilərdən yararlanma amacıyla bəzi fəaliyyətlərə girişmişdir. “(Ruslar) 1768-də Osmanlılara qarşı hərəkətə kəçməyi qərarlaşdırdıqları zaman, II-ci Katerina, rusların himayəsində bir Ararat Krallığının qurulması xüsusunda ermənilərə umud verərək (onları) təşviq etdi.”[1]

1816-ci ildə Moskva,da “Erməni Doğu Dillri İnstitütü” quruldu. Burada gənçlərin təlim-tərbiyəsi yanında sivil və əsgəri elemanlar yetişdirilirdi. Ayrıca Rusiya, Qafqaziyanın müəyyən yerlərində erməni nufusunu çoxaltma və bu yerləri mümkun olduğu qədər Türk ünsurundən təmizləmə məqsədiylə bir sıra tədbirlərə əl atdı. Bu məqsədlə Rusiya 1828 Türkmənçay və 1829 Edirnə (Rus-Omsalı) anlaşmalarına xiristiyanların əngəllənmədən və sərbəstcə Rus torpaqlarına (Qafqaziya,ya) köç edəbilmələrinə zəmin hazırlayan maddələr qoydurmuşdur. Amacı isə o bölgədə bir ***Ermənistan Vilayəti*** qurmaq idi. Bununla da 1828-29 Osmanlı- Rus savaşı sırasında doğu Anadoludan 120 min Erməni Qafqaziya,nın müəyyən bölgelərinə, o sıradan İrəvan və Qarabağa köçürüldü.

Tarixi faktlar göstərir ki, yalnız 1828-29-cu illərdə indiki Ermənistan adlandırılan torpaqlara yaxın şərq ölkələrindən (İran və Osmalıdan )130,000 sonraki dövrlərdə isə 600,000 erməni köçürülmüşdür[2]. Rusların həyata keçirdikləri politikaya ilə bir yandan qonşu ölkə Erməniləri Qafqasyanın müəyən bölgələrinə köçürülürkən diger tərəfdən Türklər bu bölgələrdən qovulmuşdur. Monoetnik bir Erməni coğrafyası yaratma siyasəti sovet dönemində də Komunist partiyasındaki Ermənilər tərəfindən dəstəklənmişdir

Yenə də qaynaqlara görə 1856 - 1866 illəri arasında 600,000 və 1864 ilindən sonra isə 200,000 Qafqazya Türk- müsəlmanı Anadoluya köçürülmüşdür. Ancaq

bu sadəcə canlarını qurtara bilənlərin sayısıdır. Tarixi faktlara görə Qafqazyadan Anadoluya köç edənlərin 1/3-i yolda ölmüşdür ki bu da köçənlərin sayısının təxminən 1.200.000 nəfər olduğunu söyləməmizə imkan verir[3]

1877-78 Osmanlı- Rus savışında Osmanlının məğlubiyyətə uğramasıyla iki tərəf arasında Ayastafanos Anlaşması imzalandı. Ruslar bu anlaşmaya Ermənilərlə ilgili bir maddə qoydurdular. Bu hadisə, Osmanlının iç işlərinə qarışa bilmə və Doğu Anadoluda nüfuz sahibi ola bilmə yolunda Rusya tərəfindən atılan bir adım idi. Buda İngiltərənin Doğu Çıxarları baxımından böyük bir təhlükə hesab edilirdi. Dolayısıyla İngiltərə 1878 Berlin konqresində Erməni məsələsini öz qoruyuculuğu altına aldı. Bununlada Erməni məsələsi artıq böyük devlətlərin şərq müstəmləkəçilgində öz çıxarları istiqamətində istədikləri kimi yararlandıqları bir məsələyə çevrildi.

Bu tarixdən sonra İngilislər və Rusların təhriki və himayəsi ilə Erməni təşkilatlarının qurulması da sürət qazandı. Hınçaq Komitəsi Qafqazyalı Ermənilər tərəfindən 1887-də İsveç,də quruldu. Hincaqların amaçları öncə Doğu Anadolunu ələ geçirmək, sonra isə buranı Rusiya və İran,da məskun olan erməni bölgələri ilə birləşdirərək müstəqil bir Ermənistan qurmaq idi. Daşnaksiyon Komitəsi isə 1890-da Qafqasyada qurulmuşdur. Onların amacıda Türkiyədə fəaliyyət göstərən erməni dərnəklərini birləşdirərək onlara yardım etmək və bir Ermənistan qurulmasını sağlamaqdır.[4] Bu təşkilatların amacı Osmanlı topraqları içində isyanlar çıxarmaqla məqsədlərinə nail olmaq idi. Bu məqsədlə təşkilatlanan ermənilər bundan sonra isyan hərəkətlərinə girişdilər.

Erməni Komitələri bu tarixlərdən sonra müstəqil bir dövlət qurmaq məqsədiylə Osmanlı Ermənilərini üsyan qaldırmaları üçün təhrik etməyə başladılar. Bunun nəticəsində 1894-də Bitlis üsyanı baş verdi. Ancaq bu ayaqlanma basdırıldı. Bundan bir ay sonra sentiyabr (eylül) 1895-də İstanbulda bir qurup Ermənin Bab-i-Ali,yə yürüməsiylə hadisələr yenidən başladı və qıssa bir zamanda Doğu Anadoluya yayıldı. Bu hadisələr qarşısında Osmanlı dövəltinin bəzi tədbirlər almasıyla Avrupa Dövlətləri başda İngiltərə olmaq üzərə işə qarışdılar, hətta İstanbula savaş gemilərini göndərərək basqıya başladılar.[5]

Daşnaksiyon Komitəsinin digər bir təşəbbüsü isə iyul (təmuz) 1905-də Sultan II.Ebdülhəmidə qarşı tərtib etdiyi bombalı sui-qəsd idi. Bu sui-qəsddə 26 nəfər öldü, ancaq Sultan sağ qurtuldu. Soruşdurmalar nəticəsində sui-qəsd ilə 42 nəfərin əlaqəsi olduğu ortaya çıxdı. Ancaq İngiltərə, Rusiya və Fransa'nın yardımı və təzyiği ilə bunlar cəzalandırılmaqdan qurtuldular.

Osmanlı dövləti erməni ayaqlanmalarına son verə bilmək üçün onlarla anlaşmaya varmak üzərə 1896-dan sonra bir çox təşəbbüsdə bulunmuşdu ancaq ermənilərin aşırı istəklər iləri sürməsiylə bir nəticə əlde edilməmişdir. Digər tərəfdən Berlin Anlaşmasının 23.cü maddəsi Makedonyalılara bağımsızlıq

yolunu açdığından ,ermənilərə də bu anlaşmanın 61.ci maddəsiylə eyni şəkildə müstəqillik qazana bilmə umuduna qapılmışdırlar. Bunun üçün də onlar üçün anlaşmaq deyil anlaşmamaq əsasdır.[6]

Birinci dünya savaşında Ermənilər itlaf dövlətlərinin yanıda yer alaraq Osmanlı dövlətinə qarşı savaşa girdilər. Onlar Anadolunun müxtəlif yerlərində isyan çıxarmaya başladılar. İlk Ermənі üsyanı 17 avgust 1914-də Maraş,a bağlı olan Zeytin,də çıxdı. Hadisələr Kayseriyə də yayıldı. Ermənilər daha sonra Adana, Urfa, Antakiya, Ərzrum, Bursa , Sivas,da üsyanlar çıxardılar. Onlar 15 may 1915-də Van,ı işgal edərək Ruslara təslim etdilər. Bu üsyanlar və soyqırımlar nəticəsində 100 minlərlə müsəlman Türk öldürülüb və ya yerindən qovulmuşdur ki bunları başqa bölgələrə yerləşdirmək və ehtiyaclarını təmin etməkdə müxtəlif cəbhələrdə savaşan Osmanlı dövləti üçün ayrı bir problem təşkil etmişdi. Doğu Anadoluda Erməni qətli-amları nəticesində qaçqın düşənlərin sayısı 650,000 nəfərin üstündeydi.

Bu üsyanlar sırasında Osmanlı çox ağır şərtlər içində Suriyə, Filistin, Iraq, Qafqaz və Çanak kala cəbhələrində dünyanın böyük dövlətlərinə qarşı özünü müdafiə etməkdəydi. Dolayısıyla üsyanlar artıq Osmanlı dövlətinin varlığını təhdid edən və taleini dəyişdirə bilən bir amilə çevrilmişdir. Bu səbəbldə Osmanlı dövləti beşinci qol rolunu oynayan üsyancılara qarşı bəzi tədbirlər almaq məcburiyyətində qaldı. Bunun nəticəsi olaraq 21 May 1915-də tehcir qanunu çıxarıldı. Bu qanuna esasen Ermənilər Doğu Anadoludan güneyə köçürüldü. Bu köçürülmə əsnasında və birinci dünya savaşı boyunca çox sayıda erməni ölmüşdür. Ancaq onların vasitəsiylə öldürülən Anadolu Türklərinin sayısı heç şübhəsiz ki daha çox olmuşdur. Hələ öldürülən 100 minlərlə Qafqaziya və Güney Azərbaycanlı Türküdə nəzərə aldıqda bölgə Türklərinin məruz qalmış olduğu soyqırımın boyutları dahada aydınlaşır. Türk- Erməni münasibətləri sahəsində ixtisaslaşmış **Amerikan tarixçisi Mister Karti yazır: *“Anadoludaki Erməni varlığını anlamaq istəyən unudmamalıdır ki....çoxu Türk olan 2,500,000 müsəlmanın da öldüyünü statistik məlumatlar göstərir. Ermənilərlə məskun olan yalnız 6 vilayətdə 1,000,000-dan artıq müsəlman öldürülmüşdür.”*** [7]

7- Noyabr (Kasım) 1917 tarixində Bolşeviklər Rusiyada iqtidarı ələ geçirdikdən sonra Rusiya savaşdan çəkildi. 1918-ci ilin Yanvar ayında Qafqaziya rəsmi şəkildə Rusiyadan ayrıldı. Öncə Qafqaziya Geçici Hökuməti quruldu, ancaq qıssa bir müddətdən sonra yerini Azərbaycan, Ermənistan və Gürcüstandan ibarət Transqafqaziya Seymi’nə verdi. Bu arada Bakı, ermənilər və Bolşeviklər tərəfindən ələ geçirildi. Ancaq bu Bolşevik adı altında bir Erməni istilasıydı. Çünki bu quvvələrin əsas hissəsini Stefan Şaumyanın başçılıq etdiyi ermənilər təşkil etməkdə idi. Bu da Bakı Türkləri üçün qorxunc bir soyqırım başlanqıcı idi. Ermənilər Bakıda 1918 Mart ayının 30-dan başlayaraq üç gün davam edən qorxunc bir qırğın gərçəkləştirdilər. Bu olaylarda 10,000-dən artıq Türk öldürüldü.

1917-ci ilinin son aylarından etibarən ermənilər Qafqaziya və Güney Azərbaycanın bəzi bölgələrində etnik təmizləmə siyasətini həyata keçirməyə başladılar. Bölgə Türkləri və qismən Kürdlərinə qarşı aparılan bu soyqırım və qovma siyasətinin şiddəti 1918-in Mart'ında zirvəyə yüksəldi və sonra kı aylarda da davam etdi. Onlar Bakı, Şamaxı, Kürdəmir, Lənkəran, Səlyan və Quba, Zəngəzur, Naxçıvan vb., Güney Azərbaycanda isə Urmiyə Salmas, Köhnə Şəhirdə və bu şəhərlərin ətraf kəndlərində Azərbaycanlı Türkləri qətl etməyə, qovmağa başladılar. Hətta Andranik 8 minlik silahli quvvəsiylə, Xoyu ələ geçirmək məqsədiylə Qafqaziyadan güneyə doğru hücuma keçdi.

Daşnakların avantura – "təmizləmə",Türksüzləşdirmə- siyasəti nəticəsində 1918-ci ildə Ermənistanda yaşayan 575,000 Azərbaycanlı 1920-ci ildə 11,000-dək azalmış, onların %98-i qırılmış və qovulmuşdur. Lakin sonraki illərdə Azərbaycanlıların qismən geri qayıtmasına və 1979-cu ildə 161,000 nəfərə çatmasına baxmayaraq bu etnos heç vaxt əvvəlki sayını əldə edə bilməmiş və əvvəlki sayla müqayisədə 3.5 dəfə azalmışdır.[8]

1918-1920-ci illərdə İgdır və Eçmiedzin qezalarında 60 kənd və onların bütün kişiləri Göyçə Mahalında 22 kend ve 60 min adam, Yeni Beyaziddə 84 kənd və 15,000 ev, İrəvan qezasında bütün kəndlər, Eçmiedzin və Sürməli qəzalarında 996 kənd və qəsəbə, Zəngəzur qəzasında 115 kənd və 10,000-ə yaxın adam o cümlədən 4472 qadın və uşaq məhv edilmişdir. 1919-cu ildə İrəvan quberniyası müsəlmanlarının Amerikalılara müraciətində deyilir ki, 88 kənd dağıdılmış 1920 ev yandırılmış 131,970 kişi öldürülmüşdür. Həmin illərdə Qarabağın dağlıq və dağətəyi hissəsinde 150-yə yaxın müsəlman kəndi xarabalığa çevrilmiş, əhalisi qarət edilmiş, bir hissəsi qırılmış, qalanı ise silahla qovulmuşdur.[9]

Göründyü kimi yuxarıdaki sətirlərdə İrəvan Vilayətində məhv edilən kəndlərin sayısı verilməmişdir, bununla əlaqədar məlumata isə Pro.Dr. Cəmil Həsənli,nin "Azərbaycan Tarixi 1918-1920" adlı əsərində rast gəlirik. Müstəqil Transqafqaziya Hökumətinin Baş Naziri A. Çhenkeli,nin Qarsı Osmanlı dövlətinə təhvil vermə sərəncamından sonra "oradan çıxan silahlı ermənilər intiqam hissini yol boyu yerli Türk xalqına qarşı zorluq və terror hesabına soyutmağa başladılar. Qarsdan sonra zorbalıq dalqası İrəvan Vilayətinə geçdi. Qıssa müddətdə Qars Vilayətində 82, İrəvan Vilayətində 211 Müsəlman kəndi dağıdıldı, əhalisinin bir qismi öldürüldü qalan qismi isə pərişan bir hala düşdü. İrəvan Vilayətindən olan qaçqınların sayısı 80,000 nəfəri geçirdi. Qars,da ermənilərin törətdikləri vəhşilikləri ermənilərlə bərabər Qarsı tərk etmiş yunanlar belə təsvir edirdilər: "Türk ordusu qarşısında geri çəkilən silahlı Erməni Qolçomaqları ətrafdakı müsəlman kəndlərini yer üzündən silərək hər bir şeyi od və qılınçdan keçirirdi…"Galib" Erməni ordusu əsgəri qənimətləri yeni

süngü ucuna taxılmış süddən kəsilməmiş körpələrlə keçdikləri yolların ətrafına çıplaq soyulmuş müsəlman qadınlarını düzürdüler…səksən iki kənddən ibarət bir sancaq bu təsvir edilən fəlakətə məruz qaldılar."[10]

Qaynaqlara göre, 1905-1907 və 1914-1920-ci illərdə ermənilər tərəfindən öldürülən Azərbaycanlı Türk sayısı təxminən 500,000 nəfərdir.

1918-ci ilin may ayının 26-da Trans Qafqazya Federasyonu dağıldı. Eyni gün Gürcüstan İstiqlalını elan etdi. Azərbaycanda isə 27 mayda Keçici Milli Şura quruldu və M.Ə. Rəsulzadə Milli Şuranın Başqanı seçildi. 28 mayda isə Azərbaycan istiqlalını elan etdi.

Bağımsızlıq elan edildikdən sonra yeni qurulmuş dövlətin sərhədlərini müəyyənləşdirmə zərurəti meydana çıxmışdı və Transqafqaziyada qurulan milli dövlətlər içərisində ən zor duruma düşən isə Ermənistan olmuşdur. Yeni dövlətlərin hər birinə bir siyasi mərkəz lazım idi. Ermənistan üçün belə bir mərkəz ancaq İrəvan ola bilərdi lakin İrəvan bir Azərbaycan şəhəri idi. Dolayısıyla Erməni Milli Şurası əzərbaycanlı yetkililərlə görüşərək İrəvanın ermənilərə verilməsini xahiş etmişdir. Bu məsələ Azərbaycan Milli Şurasında mübahisəyə qoyuldu. Əzalardan bəzisi bu fikirə qarşı çıxaraq İrəvanın ermənilərə imtiyaz olaraq verilməsini bir bəla olaraq dəyərləndirsələrdə ancaq mübahisələrin sonunda Milli Şura İrəvanın ərmənilərə verilməsini qəbul etdi. Bunun qarşılığında ermənilər Qarabağ,a olan iddialarından vaz geçəcəkdilər.[11]

Bilindiyi kimi Rusiya ilə Fransa XVIII yüzil və İngiltərə ilə Amerika isə XIX yüzildən başlayaraq Osmanlı və İran torpaqlarındaki politikalarını həyata keçirmə məqsədiylə bu ölkələrdəki xristiyan ünsürlər, o sıradan ermənilər üzərində nüfuz sahibi olmaya çalışmışdırlar. Fransanın XVIII yüzillikdən etibarən təqib etdiyi missionerlik fəaliyyətlər nəticəsində Osmanlı torpaqlarındakı Qriqoyan ermənilər arasında Katolik məzhəbi yayılmaya başlamış və nəhayət Fransanın təzyiği ilə Katolik cəmaəti 1831-ci ildə Osmanlı dövləti tərəfindən qəbul edilmişdir."Bu eyni zamanda (Fransanın) ermənilər üzərində günü-gündən artan nüfuzu üçün ilk pillə olacaqdı."[12]

Osmanlı Dövlətində İngilis missionerlər 1815-dən, Amerikalı missionerlər isə 1826-dan etibarən fəaliyyətlərə başlamış və ermənilərin bir qismini Protestanlaşdırmışlar və nəhayət İngilis təzyiği ilə 1846-da Osmanlı torpaqlarında Protestan Kilisəsi qurulmuşdur.

Amerikalı Missionerlər ilk olaraq 1834 ilində Urmiyəyə gəlmişlər. İngilislər və Fransızlar da eyni şəkildə 19-cu yüzilliyin ilk onilliklərindən etibarən Qacar torpaqlarında missionerlik fəaliyyətlərinə başlamışlar.

"Birinci dünya savaşına geden illərdə 21 Presbyter Missionuna mənsub Missioner, ailələriylə birlikdə Urmiyədə yaşayırdılar…1895-ci ilin əvvəllərində

( Amerikalılara aid olan) bu Mission Urmiyə bölgəsində 117 oxul ( məktəb) Təsis etmişdi. Bu oxullarda 2410 nəfər təhsil almaqda idi ki, bunların çoxunu erməni və Assuri öyrəncilər (tələbələr) təşkil edirdi."[13] W.Shedd isə birinci dünya savaşı sırasında adı geçən Amerikan Missionunun ən önəmli Missioneri idi. Mr.Shedd 1914-də rəsmi olaraq Urmiyə Amerikan konsulu təyin edildi.

Üzdə sadəcə dini mahiyəti olan bu missionlar, digər fəaliyətlərinin yanında Osmanlı və Qacar torpaqlarında yaşayan erməni və Asori xalqa milli hislər aşılamaya çalışırdılar. Bununla da 1-ci dünya savaşı başladıqda onların kimin tərəfində yer alacaqları bəlli idi.

Birinci dünya savaşında Osamlı Ordusuna qarşı savaşa girən ancaq məğlubiyyətə uğrayaraq qaçan 10 minlərlə silahlı Asori (bunlar Güney Azərbaycanda Cilo adı ilə tanınırdılar ki buda Asori tayfalarının sadəcə birinin adıydı) və ermeni Güney Azərbaycanın Urmiyə bölgəsinə girdilər daha sonra bunlara Qafqaziyadan gələn silahlı erməni dəstələri də qatıldı. Bunlar bölgənin yerli erməni və Asorilərini də yanlarına alaraq Urmiyə bölgəsində qətl – qarətə başladılar. Və nəhayət 1918-in martında planlı bir şəkildə bölgəni ələ keçirmə məqsədiylə hərəkətə keçdiler..Rusiyanın Bolşevik inqilabı nəticəsində Rus əsgərləri Anadolu və Güney Azərbaycandan geri çəkilməyə başladıqda silahlarını ermənilərə vermişdilər.

Kəsrəvinin yazdığına göre, 800 Rus və 72 Fransız ordu mensubu ilə bir neçə İngilis subayı Erməni-Assuri silahlı quvvələrini organizə etmiş, Amerikan Konsulu Sheddle bəzi rus və fransız yetkilisinində bilavasitə iştirakı ilə Ermeni-Assurilərdən ibarət böyük bir ordu qurulmuşdur. Məqsəd Rusiyanın savaşdan çəkilməsi nəticəsində boş qalmış olan Anadolu və G. Azərbaycan cəbhəsində Türk Ordusuna qarşı savaşacaq və onun Qafqaziyaya ilərləməsini əngəlləyə biləcək əsgəri bir güc yaratmaq və şərtlərin əl verdiyi təqdirdə Anadolu, Güney Azərbaycan və Qafqaziyanın bir hissəsindən ibarət Denizdən Dənizə Böyük Ermənistan dövlətini qurmaq idi.

Bu amacla da Erməni- Assurilər hazırlıqlarını tamamladıqdan sonra 22 Fevral (Şubat) 1918-də Urmiyyəni ələ keçirmək üçün şəhərdə qətli-amma başladılar. Dörd gün davam edən soyqırımdan sonra pərdə arxasında hadisələri yönləndirən Missioner və eyni zamanda Amerkan konsulu Mr.Shedd ancaq Xiristiyanlar tərəfindən verilən oltimatomu Müsəlmanların qeydsiz-şərtsiz qəbul etməsiylə qətli-ammı durdurdu. Bu oltimatoma görə, müsəlmanlar 48 saat içində silahlarını təslim etməli Osmanlı tərəfdarı dörd nəfər – Erməni-Assurilərin heyata geçirdikləri soyqırıma qarşı yerli əhalini organizə etməyə çalışan- şəxsləri isə Xiristiyanlara təslim etməliydilər. Bu soyqırım təşəbbüsündə 10,000 Müsəlman öldürüldü.[14]

Urmiyyni bu şəkildə ələ keçirən Erməni-Assurilər bu səfər əsas amacları olan Xiristiyan dövləti qurma məqsədiylə hərəkətə keçdilər. Bu arada Assurilərin

Lideri Marşimunun Kürt əşirət lidərlərindən İsmail Ağa Simko tərəfindən öldürülməsini bəhana edən Erməni-Assurilər bölgədə təkrar qorxunc bir qətli-amma başladılar. İlk qətli-ammdan sadəcə bir nəçə həftə sonra yeni 19 və 20 mart 1918-də Urmiyyə və ətraf bölgələrində ikinci bir soyqırım yaşandı və bu ikinci soyqırımda da Urmiyyədə təxminən10,000 nəfər öldürüldü. Erməni-Assurilər daha sonra hakimiyyət sahələrini genişləndirmə məqsədiylə quzeyə yönəldilər və Salmas şəhərini də dəhşətli bir qətli-ammla ələ keçirdilər.

Bu qanlı istila ilə Urmiyyə və Salmas bölgəsi bir neçə ay Erməni- Assuri işğalında qaldı. İşğalın sonlarına doğru Qafqaziya Ermənilərindən Andranik 8 minlik silahlı quvvəsiylə Xoyu ələ keçirərək Urmiyyə və Salmasdaki Ermənilərlə birləşmək məqsədiylə Naxcıvan bölgəsindən güneyə hücum etdi. Ancaq bu esnada artıq Osmanlı ordusu Urmiyyə və Salması qurtarmaq üçün hərəkətə keçmişdir. Andranik Xoy şəhərinə hücum etdi lakin əhalinin gözlənilməz dirənişi ilə qarşılaşdı və Türk ordusunun da tam zamanında gəlib çatmasıyla Andıranık ağır bir məğlubiyətə uğrataraq qaçmaq məcburiyytində qaldı. Osmanlı ordusu öncə Salması daha sonra isə 1918-ci ilin Avqust ayının 1-ci günü Urmiyyəni Erməni-Assurilərdən geri aldı. Erməni- Assurilərin, Güney Azərbaycanın adı keçen bölgələrində həyata geçirdikləri bu qetli-ammlar nəticəsində 130,000 nəfər öldürülmüşdür.[15]

Erməni – Assurilər ağır savaşlardan sonra öncə Salmasdan sonra isə Urumiyyədən çıxmaq məcburiyyətində qaldılar və Sayın Qala,daki İngilis ordusuna çatmaq üçün güneyə doğru əndilər.

Güney Azərbaycan Qurtuluş Patriyası Staratejik Araşdırmalar Bölümü

Kürşad Yalçın

---

1 -Doç.Dr.Ali Arslan, Kutsal Ermeni Papalığı, İstanbul 2005, S.28
2 -Akif Aşırlı, Türkün Xocalı Soyqırımı, Bakı 2005, S.12
3- Sedat Laçiner, Qodrethaye Bozorg ve Meseleye Kezaiye Eramene, farsca tercüme,www.millishura.com
4 -Etraflı melumat için bax:Dr. Rifat Uçarol, Siyasi Tarih (1789-1994) İst. 1995, S376-377
5- Dr.Rifat Uçarol, Siyasi Tarih, S. 378
6- Dr.Rifat Uçarol, Siyasi Tarih, S. 420
7-Azerbaycan Elmler Akademiyası, Ermeni Terrorizmi ve Cinayetleri, Bakı 1994, S.4
8- Türkün Xocalı Soyqırımı, S.16
9- Türkün Xocalı Soyqırımı, S.16
10-Prof.Dr. Cemil Hesenli, Azerbaycan Tarixi (1918-1920) Ankara 1998, S. 78
11-Prof.Dr. Cemil Hesenli, Azerbaycan Tarixi (1918-1920) Ankara 1998, S. 99
12 -Doç.Dr.Ali Arslan, Kutsal Ermeni Papalığı, İstanbul 2005, S. 54
13 -İran ve Cenge Cehaniye Evvel (meqaleler toplusu) Tehran 1380, S. 394
14- Kesrevi Ahmed, Tarixe Hecdeh Saleye Azerbaycan, S. 721
15-Etraflı melumat için : Tarixe Hecdeh Saleye Azerbaycan, S. 763